www.kitabxana.net

Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın təqdimatında

# HEYDƏR ƏLİYEV İRSİNİN POLİTOLOJİ ASPEKTLƏRİ



**Elmi-praktik materiallar toplusu**

E-nəşr (IV Cild)

2026

**E-kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb**

YENİ YAZARLAR VƏ SƏNƏTÇİLƏR İCTİMAİ BİRLİYİ

# HEYDƏR ƏLİYEV İRSİNİN POLİTOLOJİ ASPEKTLƏRİ




## IV CİLD

**Bakı – 2026**

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi**

**www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında**

***“Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” kulturoloji layihə silsiləsindən***

**YYSİB-nin kulturoloji e-kitablar seriyası**

**Elektron kitab N 16 (07 - 2026)**

**Bu elektron nəşrlər Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi verdiyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən reallaşdırılan, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın texniki-yaradıcı yardımıyla icra edilən, “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” kulturoloji layihə çərçivəsində hazırlanaraq yayımlanır.**

**Kreativ-bədii layihənin maliyyələşdirən qurum:**

**Azərbaycan Respublikasının Gənclər Fondu**

**http://youthfoundation.az**

Silsiləyə daxil edilən elektron nəşrləri buradan izləyin:

https://kitabxana.net/e-library.php?cate=206

Rəsmi FB səhifəmiz:

https://www.facebook.com/intellektualesger/

QEYD: Bu e-nəşr Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə yardımı ilə hazırlanmışdır.

Fond nəşrin məzmununa görə məsuliyyət daşımır.

Elmi-praktik toplu

**Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb**

**YYSİB və Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2026**

**Virtual redaktoru və e-nəşrə hazırlayanı:**

**Aydın Xan Əbilov, yazıçı-kulturoloq, Prezident təqaüdçüsü**

Elektron kitabın bu növbəti cildinə ölkəmizin yeni dövlətçilik ənənələrini yaratmış, həyatını vətəninin azadlığına,

bütövlüyünə, iqtisadi-mədəni inkişafına həsr etmiş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli siyasi-dövlətçilik fəaliyyətinin elmi tərəflərinə həsr olunub.

"Heydər Əliyev. Elmi miras": coxcildli toplunun bu yeni - IV cildində dahi tarixi şəxsiyyət, görkəmli siyasətçi, Ulu Öndərimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin elmi tərəfləri araşdırılaraq yeni nəsil nümayəndələrinin diqqətinə çatdırılır.

***YENİ YAZARLAR VƏ SƏNƏTÇİLƏR İCTİMAİ BİRLİYİ***
***ASSOCIATION OF NEW WRITERS AND ARTIST***

*"**İntellektual, Kulturoloji** və Bədii Ədəbiyyat Kitabxanası"* ***№ 28***

**Redaksiya heyəti:** Aydın Xan Əbilov, Adəm İsmayıl Bakuvi, Leyla Məcidova, Ramal Əliyev, Məhəmməd Məmmədov, Nizami Şıxiyev

**Bədii redaktor:** Aydın Xan Əbilov, YYSİB sədri, yazıçı-kulturoloq

**«HEYDƏR ƏLİYEV. ƏBƏDİ MİRAS». IV cild, YYSİB, Bakı-2026.**

**©YYSQ - 2026**

**DİQQƏT!**

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

**HEYDƏR ƏLİYEV İRSİNİN**



# POLİTOLOJİ ASPEKTLƏRİ

## Praktik fənn üzrə

## P R O Q R A M

**Tərtib edən:**

**Cümşüd Qurban oğlu Nuriyev,**

Qərb Universitetinin “Politologiya

və  Beynəlxalq münasibətlər”

kafedrasının müəllimi, Siyasi elmlər doktoru

**Elmi redaktor**:

**C.Ə. Bəhramov**

Tarix elmləri doktoru, professor

**Rəyçilər**:

**Vəsilə Cümşüd qızı Hacıyeva,**

Qərb Universitetinin "Politologiya və beynəlx-alq münasibətlər" kafedrasının müəllimi,

Siyasi elmlər doktoru

**Davud Soltan oğlu Həşimov**,

AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Politologiya və siyasi sosiologiya" şöbəsinin böyük elmi işçisi,

Siyasi elmlər üzrə fəlsəfə doktoru

# Giriş

Azərbaycan müstəqilliyinə təkrar qovuşduqdan sonra, ölkəmizin qarşısında diktaturadan demokratiyaya, planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına, iki yüz ilə yaxın işğalçılıq tarixi olan imperiyanın bir hissəsindən milli dövlətə çevrilmək məqsədləri dururdu. Dövlətçiliyimizə mane olmağa çalışan daxili və xarici qüvvələrin təxribatları, keçmiş iqtisadi əlaqələrin pozulması, keçid dövrünün sosial-iqtisadi çətinlikləri, müstəqilliyin ilk illərində ölkə rəhbərliyinin səriştəsizliyi üzündən buraxılmış səhvlər, tez-tez baş verən hakimiyyət dəyişilikləri və digər məsələlər xalqımızın müstəqillik yolunu xeyli çətinləşdirmişdi. Azərbaycan dövlətinin ikinci dəfə əldə etdiyi müstəqilliyi böyük təhlükə ilə üz-üzə qalmışdı. Dövlətin xəzinəsi tamamilə dağıdılmış və xarici dövlətlərin ölkəmizə olan etibarı yox səviyyəsinə enmişdi.

Xalqımızın israrlı təkidlərinə hörmətlə yanaşan Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra, qısa bir müddət ərzində, öz müdrikliyi və peşəkarlığı nəticəsində ağır maneələri səbrlə, bir-bir dəf edərək,

Azərbaycanı uçuruma aparan hadisələrin nəinki gedişini dəyişdi, hətta ölkədə siyasi və iqtisadi sabitliyə nail olaraq islahatlar sistemini həyata keçirməyə başladı. Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin xarici iqtisadi və siyasi əlaqələrinin genişlənməsinə, beynəlxalq maliyyə qurumları və donor ölkələr tərəfindən Azərbaycana sərmayə qoyulyşuna, iqtisadiyyatın müxtəlif sahələrində çoxsaylı layihələrin həyata keçilməsinə təkan verdi.

Keçmiş covet respublikaları içərisində ilk olaraq, məhz H.Əliyevin rəhbərliyi altında iqtisadi və siyasi islahatlara eyni zamanda start verildi ki, bu da o zaman üçün sosializm sistemindən bazar iqtisadiyatına keçid şəraiti üçün "iqtisadi inqilab" demək idi.

**Birincisi**, uzun müddət imperiya şəraitində yaşayan və sərbəst milli siyasət yürütmək imkanları olmayan dövlətdə xalq psixoloji cəhətdən köklü islahatlara hazır olmadığından, aparılan islahatlar "bumeranq" effekti verə bilərdi.

**İkincisi,** ərazisinin 20%-i işğal altında olan, bir muilyondan çox qaçqın və köçkünə məcburi qucaq açan Azərbaycan kimi ölkədə, hər kəsin mülkiyyət hüquqlarını təmin etmək imkanları daha çox beynəlxalq güclərdən asılı olduğu üçün, sosial narazılıqların olması nə qədər təbii sayılsa da, bu

istənilən vaxt ölkədaxili siyasi sabitliyin pozulması ilə nəticələnə bilərdi.

**Üçüncüsü,** planlı iqtisadi siyasətə adət etmiş əhali, ona tamamilə yeni və yad olan bazar iqtisadiyyatı qanunlarını qəbul etmək də çətinlik çəkirlər ki, bu da həmin insanların sosial-siyasi mühitdən özünütəcridi ilə nəticələnə bilərdi. Böyük insan qruplarının cəmiyyətin həyatında fəal iştirak etməməsi isə, siyasi sabitliyin dayanıqlı olmasına maneçilik törədərdi.

**Dördüncüsü**, "inqilabı islahatlar" siyasətini qəbul edən ölkəmiz iqtisadi və siyasi islahatları eyni zamanda apardığı üçün, sosial ədalətin gözlənilməsinin çətinlikləri ölkədaxili gərginliyə səbəb ola bilərdi ki, bu da keçid dövrünü yaşayan ölkə üçün ən arzuolunmaz hal sayılır.

Yuxarıda sadılanları nəzərə alsaq onda Ümummilli Liderimizin nə qədər böyük bir siyasi risk etmiş olduğunu dərk edə bilərik. Riskin dərəcəsinin böyüklüiünə baxmayaraq Heydər Əliyev ölkədə islahatların kompleks şəkildə həyata keçirilməsiə qərar verdi.

Ümummilli Liderimizin müdrik və uzaqgörən siyasəti tezliklə öz nəticələrini verməyə başladı. 1994-

cü ilin May ayında "Atəşkəs haqqında" saziş imzalandıqdan sonra, ölkəmizə olan inamsızlıq aradan qalxdı və 1994-cü ilin Sentyabr ayının 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin imzalanması Azərbaycanda siyasi sabitliyin dayanıqlı hala keçməsinə və islahatların başlanmasına təkan verdi. 1995-ci ilin noyabr ayında müstəqil Azərbaycanın Konstitusiyasının qəbul olunması isə dövlətimizin tarixində yeni bir mərhələninin - tərəqqi və demokratiya dövrünün başlanmasının əsasını qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənablarının qeyd etdiyi kimi, **"Belə bir çətin anda çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xöşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qoydu".**

Azərbaycan Respublikasında bütün sahələrdə islahatların aparılmasına başlandı. Dünya təcürbəsində

islahatlar adətən mərhələli şəkildə həyata keçirilir. İslahatların kompleks şəkildə həyata keçilrilməsi ideyası dahi Heydər Əliyevə məxsusdur. Bu isə böyük siyasi bacarıq tələb edir. 1995-ci ildən başlayaraq iqtisadiyyatın bütün sahələrində islahatlar həyata keçirilməyə başladı.

Planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına keçən Azərbaycan dövlətinin apardığı siyasi və iqtusadi islahatların mahiyyəti, siyasi sabitliyin təmin olunmasının yolları, azad sahibkarlığın formalaşdırılması üçün dövlətin qəbul etdiyi qərarların əhəmiyyəti, ərzaq təhlükəsizliyi və qida təminatının müstəqilliyimizin təmin olunmasındakı yeri və rolu, demokratik və dünyəvi Azərbaycan dövlətinin formalaşması, dövlətimizin əsas inkişaf prioritetləri və istiqamətləri, qloballaşma və inteqrasiya şəraitində milli dövlətçiliyin qorunması yolları və prinsipləri ətraflı şəkildə tanış olmaq istəyənlər Ümummilli lider Heydər Əliyevin çıxışları, nitqləri, müsahıbə və bəyanatları toplanmış “Müstəqilliyimiz əbədidir” çoxcilidli əsrlərinə müraciət etməlidirlər.

Əsası Ümmummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və dövlətimizə daima uğurlar

gətirən bu strateji xətt, bu gün də Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev Cənabları tərəfindən təkidlə və ardıcıllıqla həyata keçirilir.

"Heydər Əliyev irsinin politoloji aspektləri" tətbiqi siyasi idarəetmə fənnidir. Bu böyük ictimai-siyasi əhəmiyyətə malik olan və çoxsaylı tədqiqat metodlarından, arqumentlərdən, tarixi analogiyalardan istifadə etməklə, problemli vəziyyətlər üçün açıq siyasi qərarların hazırlanması və onların həyata keçirilməsidir.

"Heydər Əliyev irsinin politoloji aspektləri" fənninin məqsədi müasir Azərbaycan dövlətinin ən dahi şəxsiyyəti olan H.Əliyevin mövcud irsini politoloji müstəvidə araşdırmaq, idarəetmə təcürbəsindən yararlanmaq üçün onun hakimiyyətdə olduğu illərdəki siyasi fəaliyyətini təhlil etmək, müstəqil Azərbaycan dövlətinin qloballaşma şəraitində dünyaya inteqrasiyası prosesinin siyasi strategiyasının formalaşdırılmasında H.Əliyevin siyasi - təcrübi irsindən yararlanmaqdır.

# MÖVZU ÜZRƏ PLAN

Mühazirə saatlarının cəmi – 50 s.

Məşğələ saatlarının cəmi – 40 s.

| № | MÖVZUNUN ADI | Saat | |
|---|---|---|---|
| | | **müh** | **sem** |
| **1** | **2** | **3** | **4** |
| **1.** | “Heydər Əliyev irsinin politoloji aspektləri” fənninin məqsəd və vəzifələri. Ümummilli Lider, tarixi şəxsiyyət Heydər Əliyevin siyasi portreti | **2** | **2** |
| **2.** | Heydər Əliyevin Azərbaycan Respubliksına rəhbərliyinin sovet dövrünün politoloji aspektləri | **2** | **2** |
| **3.** | Heydər Əliyevin SSRİ rəhbərliyi dövründəki siyasi | **2** | **2** |

| | | | |
|---|---|---|---|
| | fəaliyyətinin politoloji aspektləri | | |
| **4.** | Heydər Əliyevin Azərbaycana qayıdışı və Naxçıvan MR-in xilası | **2** | **2** |
| **5.** | Milli müxalifətin Azərbaycan nümunəsi: nəzəri-konseptual əsaslar və siyasi təmayüllər | **2** | **2** |
| **6.** | Milli dövlət quruculuğu prosesinin başlanması və H.Əliyevin yeni siyasi sistemin təşəkkülündəki rolunun politoloji aspektləri | **4** | **2** |
| **7.** | Demokratik tranzit problemi: nəzəri-konseptual məsələlər, təcrübi əsaslar və Azərbaycan təcrübəsi | **2** | **2** |
| **8.** | Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun Azərbaycan nümunəsi | **2** | **2** |
| **9.** | Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının konseptual əsaslarının | **4** | **2** |

| | | | |
|---|---|---|---|
| | hazırlanmasında H.Əliyevin rolu | | |
| **10.** | Milli elita məsələsi və H.Əliyev | **2** | **2** |
| **11.** | Siyasi mədəniyyət və siyasi modernləşmənin Azərbaycan təcrübəsi | **2** | **2** |
| **12.** | Müstəqil Azərbaycanda seçki təcrübəsinin hüquqi-siyasi əsasları | **2** | **2** |
| **13.** | H.Əliyev və milli kütləvi informasiya vasitələri | **2** | **2** |
| **14** | Milli iqtisadi inkişafın sosial-siyasi nəticələri: Azərbaycanda iqtisadi münasibətlər sisteminin formalaşması mərhələləri | **4** | **2** |
| **15.** | Aqrar islahatlar və ərzaq təhlükəsizliyinin təmini | **2** | **2** |
| **16.** | Müasir beynəlxalq münasibətlər sistemi və müstəqil Azərbaycan Respublikası | **4** | **2** |

| | | | |
|---|---|---|---|
| **17.** | Milli maraqlar və xarici siyasət | **2** | **2** |
| **18.** | Ermənstan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyevin fəaliyyəti və nəticələrinin politoloji aspektləri | **4** | **2** |
| **19.** | Heydər Əliyev və Azərbaycan Milli ideologiyasının formalaşması | **2** | **2** |
| **20.** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Heydər Əliyev siyasi kursunun davam etdirilməsi | **2** | **2** |
| | **CƏMİ: 90 saat** | **50** | **40** |

## Mövzu 1

**“Heydər Əliyev irsinin politoloji aspektləri” fənninin məqsəd və vəzifələri. Ümummilli Lider, tarixi şəxsiyyət Heydər Əliyevin siyasi portreti.**

Fənnin predmeti barədə ümumi məlumat. Heydər Əliyev irsinin öyrənilməsinin vacibliyi. “Fenomen” və “Lider” anlayışlarının “Politologiya” elmində yeri. Siyasi lider fenomeninin müxtəlif təsnifatları. Xarizma - şəxsiyyətin xüsusi keyfiyyətidir. Müasir politologoyada şərti olaraq ümumiləşdirilmiş lider obrazları. Ümummilli lider, tarixi şəxsiyyət Heydər Əliyevin siyasi portreti. H.Əliyevin sovet sistemi şəraitində xalqının tərəqqisinə nail olub, müstəqil dövlətçilik üçün tələb olunan şərtləri hazırlaması və xalqı düşündürən problemləri həll etməsi. Azərbaycan Respublikasının ikinci dəfə müstəqillik qazanmasından sonra dövlətçiliyin bərpa olunması və suverenliyin dayanıqlı olmasındakı müstəsna xidmətləri. Heydər Əliyevin tərcümeyi-halı.

## Mövzu 2

## Heydər Əliyevin Azərbaycan Respubliksına rəhbərliyinin sovet dövrünün politoloji aspektləri.

Heydər Əliyevin məqsədyönlü təşkilatçılığı və rəhbərliyi sayəsində Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi sahədəki inkişaf. 1969-1982-ci illərdə Azərbaycanda sənaye obyektlərini tikintisi, iqtisadi infrastukturun formalaşdırılması, əhalinin rifah səviyyəsinin yüksəldilməsi sahəsindəki fəaliyyəti. Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və üzümçülüyün inkişafı sahəsində gördüyü işlərin müstəqillik müstəvisində araşdırılması. 1969-1982-ci illərdə Azərbaycanın inkişaf tarixinin dinamikası və Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövrünü respublikamızın müstəqil dövlət quruculuğuna aparan yol kimi qiymətləndirilməsi. Elm, təhsil, mədəniyyət və digər sahələrdə qazanılmış üğurların milli dövlətçiliyin formalaşmasındakı rolunun siyasi aspektləri.

## Mövzu 3

## Heydər Əliyevin SSRİ rəhbərliyi dövründəki siyasi fəaliyyətinin politoloji aspektləri.

Heydər Əliyevin 1976-cı ildə Sov. İKP MK Siyasi büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büronun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi. Görkəmli siyasi və dövlət xadimi kimi SSRİ-nin sosial-iqtisadi və mədəni inkişafına rəhbərlik etməsi, Sovet hökumətinin iqtisadi inkişaf strategiyasının istiqamətləndirməsi, SSRİ-nin xarici siyasətinin həyata keçirilməsi, xarici dövlətlərlə qarşılıqlı münasibətlərin yaradılması uğurunda məsuliyyətli və çətin vəzifələrin yerinə yetirilməsi kimi fəaliyyət dövrünün siyasi müstəvidə qiymətləndirilməsi. H.Əliyevin sovet sistemi şəraitində xalqının tərəqqisinə nail olub müstəqil dövlətçilik üçün tələb olunan şərtləri hazırlaması və xalqı düşündürən problemləri həll etməsi istiqamətində böyük tarixi əhəmiyyətli fəaliyyətinin siyasi cəhətdən dəyərləndirilməsi. M.Qorbaçovun ermənilərin təkidi

ilə H.Əliyevi 1987-ci ildə hakimiyyətdən kənarlaşdırılması. 1990-cı iı 20 yanvar hadisələrinə Heydər Əliyevin verdiyi siyasi qiymət və onun əhəmiyyəti.

## Mövzu 4

## Heydər Əliyevin Azərbaycana qayıdışı və Naxçıvan MR-in xilası

Heydər Əliyev 1990-cı ilin iyul ayında Vətənə - Azərbaycana - Naxçıvana qayıdışı. 1990-cı ildə Azərbaycan SSR və Naxçıvan MSSR-nin xalq deputatı seçilməsi. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təklifi ilə Naxçıvan MR Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmasının siyasi qiymətləndirilməsi. H. Əliyevin Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən birinci sessiyasında çıxış etməsi. Heydər Əliyev SSRİ-nin saxlanıb-saxlanmaması haqqında referendumda iştirak etməyin əleyhinə çıxması və Naxçıvan MR Ali Məclisinin martın 14-də keçirdiyi birinci sessiyasında referendumda iştirak etməməyi qərara almasının siyasi əhəmiyyəti. 1991-ci il sentyabrın 4-də Naxçıvan MR

Ali Məclisinin sessiyasında Azərbaycan Respublikası və Naxçıvan MR-nm xalq deputatı H. Əliyevin Məclisin sədri seçilməsi. Naxçıvanın işğal olunmasının qarşısının alınmasında H.Əliyevin xidmətlərinin siyasi əhəmiyyəti. Azərbaycanda siyasi şəraitin ağırlaşması və 1992-ci il oktyabnn 16-da Azərbaycanın bir qrup ziyalısının H. Əliyevə müraciətinin politoloji aspektləri.

# Mövzu 5

## Milli müxalifətin Azərbaycan nümunəsi: nəzəri-konseptual əsaslar və siyasi təmayüllər

Siyasi partiyalar plüralist siyasi sistemin başlıca ünsürləri kimi: Yeni azərbaycan partiyası. 1991-ci ildə YAP-ın təsis edilməsi. H.Əliyevin YAP-ın cədri seşilməsi. YAP-ın I (1999) və II (2001), III (2005), IV (2008) və V (2013) Qurultayları. İlham Əliyevin YAP-ın sədri seçilməsi. Demokratik cəmiyyətdə müxalifət institutu: mahiyyəti və spesifik funksionallıq məsələsi. Müxalifət institutunun fəaliyyət mexanizmi və funksionallığı məsələsi: radikal və konstruktiv meyllər. Milli müxalifətin Azərbaycan numunəsinin formalaşmasında Heydər Əliyevin müstəsna xidmətinin qiymətləndirilməsi. Milli müxalifətin təmayülləri, reallıqları və nəticələri.

# Mövzu 6

## Milli dövlət quruculuğu prosesinin başlanması və H.Əliyevin yeni siyasi sistemin təşəkkülündəki rolunun politoloji aspektləri

Milli dirçəliş və qurtuluşun əsasları. Milli dövlət quruculuğu prosesinin başlanması. Siyasi sistemin struktur elementlərinin formalaşması. H.Əliyev tərəfindən dövlətin inzibati idarəçiliyinin formalaşdırılması və optimallaşdırılması istiqamətində həyata keçirilən islahatlar. 1995-ci ilin noyabrında чoxpartiyalılıq əsasında parlament seчkilərinin keчirilməsi və referendum yolu ilə mıɥstəqil Azərbaycanın əsas qanunu - Konstitusiyanın qəbul olunması. Ictimai-siyasi institutlaşma prosesinin əsasının qoyulması. Azərbaycançılıq ideologiyası - milli həmrəylik və bütövlüyü təmin edən üniversal formula, yaxud neokonservatizmin milli modeli kimi.

## Mövzu 7

## Demokratik tranzit problemi: nəzəri-konseptual məsələlər, təcrübi əsaslar və Azərbaycan təcrübəsi

Demokratiya institutunun mahiyyəti, nəzəri və təcrübi əsasları. Demokratik tranzit və Heydər Əliyev fenomeni. H. Əliyevin demokratik tranzitlə bağlı ölkə qarşısında duran vəzifələr haqqında fikirləri. Demokratik tranzit probleminin modelləri, mərhələləri və reallıqları. Demokratik tranzitin yolları – Transformasiya yolu, Radikal tranzit və Uzurpasiya (və ya hərbi istila) yolu. S.Hantiqtonun demokratikləşmənin üç modeli. Siyasət nəzəriyyəsinə görə demokratik tranzitin mərhələləri. "Demokratiya" "silahi" geosiyasi oyunlar və siyasi manipulyasiya vasitəsi kimi. Demokratik tranzitin Azərbaycan modelinin reallıqlar və perspektivləri. H.Əliyev tərəfindən aparılan uğurlu daxili siyasətin nəticəsi kimi ölkənin demokratikləşməsi

prosesində atılan mühüm addımlar. Sistematik və təkmil tranzit prosesi və H.Əliyevin uğurlu siyasəti. Milli iqtisadi inkişaf və demokratik tranzit.

# Mövzu 8

## Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun Azərbaycan nümunəsi

Hüquqi dövlət anlayışının tarixi kökləri, təşəkkülü xüsusiyyətləri və modern səciyyəsi. Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi və qanuni əsaslarının müəyyənləşdirilməsi: a) Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyinin və ərazi bütövlüyünü qorumaq; b) Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək; c) xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq; ç) vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq. Vətəndaş cəmiyyətinin ideya əsasları və səciyyəvi xüsusiyyətləri. Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olması mərhələləri.

## Mövzu 9

## Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının konseptual əsaslarının hazırlanmasında H.Əliyevin rolu

İnsan və vətəndaş hüquq və azadlıqlarının təşəkkülü, inkişafı və siyasi mahiyyəti. İnsan hüquq və azadlıqlarının nəzəri əsasları və təcrübi gerçəklikləri. demokratik cəmiyyətlərdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi vasitəlıri və mexanizimləri. Ombudsman təsisatı insan hüquq və azadlıqlarının müdafiəsinin xüsusi mexanizmi kimi. Insan hüquqlarə problemlərinin beynəlxalq hüquqi tənzimlənməsinin siyasi aspektləri. Azərbaycan Respublikasında

insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya əsasları. Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi siyasətinin əsas

istiqamətləri. Azərbaycan cəmiyyətinin demokratikləşməsi şəraitində ombudsman təsisatının təşəkkülü xüsusiyyətləri.

## Mövzu 10

## Milli elita məsələsi və H.Əliyev

Milli elitanın nəzəri-konseptual əsasları və elitar transformasiyalar. Elita problemi nəzəri-konseptual və analtik-emprik tədqiqat obyekti kimi. Fəaliyyət sahəsinə görə elitanın təsnifatı. Elita nəzəriyyələri: V.Paretoya görə elitanın tipləri; Q.Moska, R.Mixelsi J.O.Qasset və başqalarının siyasi elita haqqındakı fikirləri. Milli elitanın formalaşma və təşəkkül mərhələləri, transformasiya forması və modern səciyyəsi.

## Mövzu 11

## Siyasi mədəniyyət və siyasi modernləşmənin Azərbaycan təcrübəsi

Siyasi mədəniyyətin funksiyaları, növləri və struktur elementləri. Y.Vyatra görə siyasi sistemin struktur elementlərinin komponentləri. Q.Almond və S.Verba siyasi mədəniyyətin növləri haqqında. Milli siyasi mədəniyyətin reallıqları, nailiyyətləri və perspektivləri. Heydər Əliyevin və milli siyasi mədəniyyətin formalaşması. Azərbaycan respublikasının Prezidenti İlham Əliyevin çoxşaxəli siyasəti və milli mədəniyyətin müasir vəziyyəti. Siyasi modernləşmə kursu milli inkişaf strategiyasının fundamental istiqaməti kimi. Alimlərin siyasi modernləşmənin milli nümunəsinin formalaşmasında H.Əliyevin rolu haqqındakı fikirləri. Siyasi müasirləşmənin nəzəri-konseptual məsələləri.

## Mövzu 12

## Müstəqil Azərbaycanda seçki təcrübəsinin hüquqi-siyasi əsasları

Seçki institutu demokratik siyasi sistemin mühüm struktur elementidir. Seçki sisteminin formaları. Azərbaycanda seçki institutunun hüquqi əsasları, spesifikası və struktur elementləri. Müstəqillikdən sonra sonra Azərbaycanda prezident seçkiləri təcrübəsi tədqiqat obyekti kimi: reallıqlar və nəticələr. Azərbaycanda keçirilən prezident seçkiləri barədə beynlxalq təşkilatların nümayəndələrinin və bitərəf müşahidəçilərin verdikləri qiymətlərin siyasi aspektləri. Müstəqillik illərində Azərbaycanda keçirilmiş parlament seçkilərinin reallıqları və nəticələri.

## Mövzu 13

## H.Əliyev və milli kütləvi informasiya vasitələri

Media institutunun mahiyyəti, spesifiksı və funksiyaları. Müstəqil Azərbaycanın milli mətbuatının təşəkkül prosesi və inkişaf səviyyəsi. Kütləvi informasiya vasitələrinin müstəqillik illərində formalaşmasının reallıqları və nəticələri. Heydər Əliyevin Azərbaycanda demokratik medianın təşəkkülündəki xidmətlərinin politoloji aspektləri. Modern informasiya cəmiyyətində milli maraqlar və jurnalistika. H.Əliyevin "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli Fərmanı. "Milli televiziya və radio Şurasının yaradılması" (2002).

## Mövzu 14

## Milli iqtisadi inkişafın sosial-siyasi nəticələri: Azərbaycanda iqtisadi münasibətlər sisteminin formalaşması mərhələləri

Müstəqilliyin ilk illərində sosial-iqtisadi durum: problemlər və vəzifələr. Milli iqtisadi inkişaf strategiyasının konseptual əsasları və real nəticələri. Ümummmilli lider Heydər Əliyev ölkənin milli inkişaf konsepsiyasının banisidir. Çoxmülkiyyətli yeni iqtisadi sistemə keçidin başlıca komponentləri. Müstəqil Azərbaycanın ilk Konstitusiyası iqtisadi ihkişafa fundamental hüquqi təminat kimi. Iqtisadiyyatın proporsionallığı və balanslaşdırılmış siyasət, dinamik ihkişafı sürətləndirən əsas amil kimi. Sosial ədalət prinsipi və milli gəlirlərin bölüşdürülməsi məsələsi, milli ihkişaf strategiyasının mühüm komponentidir. Milli iqtisadi inkişafın yeni mərhələsi. Azərbaycanın yeni milli iqtisadi inkişaf modeli-“paralae islahatlar

modeli”. Milli inkişafın Azərbaycan modelinin reallıqları, nailiyyətləri və perspektivlərinin siyasi aspektləri. Sosialyönümlü iqtisadiyyatın təmin olunması və modernləşmə xətti: milli iqtisadi inkişaf strategiyasının substasional istiqaməti kimi. İqtisadiyyatın şaxələndirilməsi (diversifikasiyası) - Azərbaycanın iqtisadi yüksəlişinə, zənginləşməyə aparan yoldur. Keçid iqtisadiyyatına son və yeni inkişaf mərhələsi.

# Mövzu 15

## Aqrar islahatlar və ərzaq təhlükəsizliyinin təmini

Heydər Əliyevin islahatların kompleks şəkildə həyata keçilrilməsi ideyasının siyasi aspektləri. Azərbaycanda aparılan aqrar islahatların siyasi sabitliyin təmin olunmasında rolu. Torpaq islahatı və torpaq münasibətlərinin tənzimlənməsinin siyasi proseslərə təsiri. Azərbaycan Respublikasında aqrar islahatların hüquqi əsasları - "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında" və s. qanunlar. Aqrar islahatların siyasi məqsədləri. Kənd təsərrüfatında lizinq xidmətinin formalaşmasının əhəmiyyəti. İslahatların həyata keçirilməsinin iqtisadi və siyasi nəticələri.

# Mövzu 16

## Müasir beynəlxalq münasibətlər sistemi və müstəqil Azərbaycan Respublikası

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin müstəqil aktoruna çevrilməsi prosesinin reallıqları, nailiyyətləri və nəticələri. Milli potensial və güc dəyərləndirməsi Azərbaycan nümunəsinin meyarları və göstəriciləri. Balanslaşdırma siyasəti – milli maraqlara və dəyərlərə müvafiq xarici ticarət strategiyası.

# Mövzu 17

## Milli maraqlar və xarici siyasət

Milli maraqlara praqmatik münasibətin nümunəsi və ya Azərbaycanın xarici siyasət strategiyasında enerji resursları amili. Azərbaycanın iqtisadi inkişafında tarixi dönüş: "Əsrin müqaviləsi"nin imzalanması və yeni neft strategiyası. Azərbaycan nefti regional siyasi-iqtisadi proseslərdə mühüm amil kimi: Bakı-Tbilisi-Ceyhan kəmərinin işə düşməsi və yanacaq resurslarının dünya bazarına nəqli. Neft iqtisadiyyatı digər sahələrin inkişafını stimullaşdıran amil kimi: diversisifikasiya siyasəti və qeyri-neft sektorunun inkişafı. Neft Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və regional əməkdaşlağın inkişafında mühüm vasitədir. Avropanın enerji təhlükəsizliyində Azərbaycan qazının əhəmiyyəti. Bakı-Tbilisi-Ərzurum qaz kəməri regionda yeni geoiqtisadi mənzərə yaratdı. Azərbaycanın qaz nəqli ilə bağlı şaxələndirmə siyasəti:

“Cənub dəhlizi” və NABUCCO kəmərləri məsələsi. Qaz nəqlinin yeni mərhələyə qədəm qoyması.

## Mövzu 18

## Ermənstan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyevin fəaliyyəti və nəticələrinin politoloji aspektləri

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında. 1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" müqavilələrinin bağlanmasından sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi. "Böyük Ermənistan" ideyası və Qarabağ problemi. Azərbaycan ərazilərinin işğalı. Xocalı soyqırımı. Dünya virliyinin ikili standart siyasitinin nəticələri. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsianaltik tədqiqat obyekti kimi: faktlar və nəticələr.

1993-cü il sentyabrın 24-də Azərbaycanın MDB-yə daxil olması. Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünü qorumaq və ölkədə ictimai-siyasi

sabitliyə nail olmaq istiqamətində gördüyü təxirəsalınmaz tədbirlər. Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü ilin may ayının 12-də atəşkəs haqqında razılaşmanın əldə olunmasının siyasi nəticələri. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in 1994-cü il Budapeşt, 1996-ci il Lissabon və 1999-cu il İstanbul sammitləri. 1993-2001-ci illər arasında Heydər Əliyevin ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə keçirdiyi 130, habelə 68 ölkənin prezidenti və dövlət başçısı ilə keçirdiyi 485 görüşün siyasi əhəmiyyəti.

Ermənstan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin dünya ictimayyətinə çatdırılması sahəsində Heydər Əliyevini fəaliyyətinin politoloji aspektləri.

## Mövzu 19

## Heydər Əliyev və Azərbaycan Milli ideologiyasının formalaşması

Azərbaycanın dövlət müstəqilliyinin bərpası, milli məfkurənin formalaşması, milli birlik və milli həmrəylik ideyasının təşəkkül tapmasında Heydər əliyev faktorunun siyasi aspektləri. Azərbaycan dilinin inkişafı və dövlət dili statusunu alması sahəsində atılan siyasi addımlar. H.Əliyevin "Dövlət dilinin tətbiqinin təkmilləşdirlməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərmanı. Dövlət Dil Komissiyasının yaradılması. AR Milli Məclisi tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunun qəbul edilməsi (2002).

Azərbaycan xalqının ümumtürk mədəniyyətinə quşmasında mühüm rol oynayan latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında 24 dekabr 1991-ci il tarixli qanunu və onun əhəmiyyəti.

Terkdilli xalqların mənəvi birliyini möhkəmləndirmək məqsədilə TÜRKSOY-un təşkili və H.Əliyevin fərmanı ilə Azərbaycan Atatürk Mərkəzinin yaradılması (2001). “Kitabi-Dədə Qorqudun” dastanının 1300 illiyinin qeyd olunması. Azsaylı xalqların mənəvi tərəqqisinə diqqətin artırılması.

Xalqın mənəvi gücünün artıtılmasına yönəldilən tədbirlərin həyata keçirilməsi. H.Əliyevin “1948-53-cü illərdə azərbaycanlıların Ermənstan SSR ərazisindən, tarixi etnik torpaqlarından kütləvi surətdə deporyasiyası haqqında” (17.XII.1997) və “Azərbaycanlıların soyqırmı haqqında” (26.III.1997) Fərmanlarının politoloji aspektləri. Dünya azərbaycanlılarının təşkilatlanma prosesinin gücləndirilməsi. Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsi (2001).

## Mövzu 20

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Heydər Əliyev siyasi kursunun davam etdirilməsi

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirməsinin siyasi əhəmiyyəti. İ.Əliyev tərəfindən varislik prinsipinin gözlənilməsi.

Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tam istifadəyə verilməsinin siyasi aspektləri. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlanması. Azərbaycan artıq postsovet ölkəsi deyil. "Azərbaycanda 2007-2015-ci illər üçün Yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) "Azərbaycan

Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı","2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"larının qəbul edilməsi və Azərbaycanın qloballaşan dünyaya uğurlu inteqrasiyası. Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi. Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin dünya ictimayyətinə çatdırılması sahəsində İlham Əliyevini fəaliyyətinin siyasi nəticələri. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının Cənubi Qafqazın lider dövlətinə çevrilməsi.

İlham Əliyev qloballaşan dünyaya inteqrasiya edən modern Azərbaycanın siyasi lideridir. İlham Əliyevin müasir və çevik siyasətçi kimi fəaliyyəti, müstəqil Azərəbaycan dövlətinin suverenlik zəmanətidir.

# ƏDƏBİYYAT VƏ MATERİALLAR:

## *Azərbaycan dilində*


1. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı-2001
2. Axundov N., Qasımov M. Azərbaycan və beynəlxalq parlament təşkilatları. Bakı-1996
3. “Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı”. Bakı-1991
4. Azərbaycan beynəlxalq aləmdə. I-V cildlər. Bakı, 1996-1999
5. Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2012.
7. Balayev M., Balayeva V. Heydər Əliyev və Azərbaycanda elmin, təhsilin inkişafı. Bakı-2007
8. Böyük İpək Yolu: dünəni, bu gunu, sabahı.məqalələr toplusu. Bakı-1998

***9.*** Əliyev H. Müstəqilliyimiz əbədidir. Akademik R.Mehdiyevin redaktorluğu ilə. 1-42-cı kitablar. Bakı. 1997-2012

***10.*** Əliyev İlham. Akademik R.Mehdiyevin redaktorluğu ilə. İnkişaf məqsədimizdir. 1-XV kitablar. Bakı. 2008-2014

***11.*** Əmrahov M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Dərslik. Bakı-2009

***12.*** Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf tarixi. Bakı - 2013

***13.*** Qasımov A. Taleyi tarixə dönən şəxsiyyət. Bakı-2004

***14.*** Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı-2005

***15.*** Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı-2004

***16.***

***17.*** Hikmət Babaoglu. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. Dərslik. Bakı-2013

***18.*** Hüseynova L.Ə. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. Bakı – 2013.

***19.*** Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı-2002

***20.*** Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı – 2011

***21.*** Mahmudov Y.M. Heydər Əliyev. I, II cildlər. Bakı - 2013

***22.*** Mahmudov Y.M. Heydər Əliyev: Azərbaycan elminin keşiyində. I, II cildlər. Bakı - 2013

***23.*** Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı-2001

***24.*** Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005

***25.*** Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı-2007

***26.*** Nuriyev C., İbrahimov E. Əsgərov Ə. Heydər Əliyev və Azərbaycanın aqrar kursu. Bakı-2004.

***27.*** Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı-2001

***28.*** Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı-1997

***Rus dilində***

**29.** Аббасбейли А., Аббасбейли Е. Гейдар Алиев и мировая политика. Баку-1997

**30.** Бзежинский З. великая шахматная доска. Москва-1999

**31.** Независимый Азербайджан: новые ориентиры. Москва-2000

**32.** Чернявский С.И. новый путь Азербайджана. Москва-2002

**33.** Чернявский С.И. Внешная политика Азербайджанской Республики (1998-2003). Баку-2003

***İngilis dilində***

**34.** Goltz N. Azerbaijan Diaqu: A Rogue Reportei in an Oil-rich. War-tron, Post-Soviet Republic. N.Y. 1998

**35.** NATO And Azerbaijan: mitualli beneficial cooperation. Ankara-1999

**36.** Souncil of Europe And Azerbaijan: for rease, securitu And diplamasu. Baku-2001

**37.** Swietochowski T. Russia and Azerbaijan: A borderland in transition. Baku-1995

# “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası”

## Kulturoloji Layihə haqqında

**Azərbaycan Respublikasının Gənclər Fondunun qrant müsabiqəsi çərçivəsində maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən həyata keçirilən “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” adlı ideoloji-kreativlayihəyə dekabrın 1-dən etibarən start verilib.**

Yeni nəslin kulturoloji neo-maarifləndirilməsi istiqamətində fəaliyyətlərin üç ay müddətində reallaşdırılması barədə mediaya açıqlama verən YYSİB sədri, layihə rəhbəri Aydın Xan Əbilovun bildirdiyinə görə, gənclər, eləcə də geniş ictimaiyyət arasında müstəqil Azərbaycanın Konstitusiyasının müəllifi, Ümummilli Lider Heydər Əliyevin irsinin yeni innovativ formalarda təbliği və tanıtımı aparılması nəzərdə tutulub.

Təşkilat son 10 ildə Azərbaycanın suverinliyi, müstəqilliyi, siyasi-dövlətçilik atributları, eləcə də Konstitusiya dəyərləri, müstəqilliyi və onun banisi Ümummilli Lider Heydər Əliyev irsi ilə bağlı müxtəlif layihələr həyata keçirib, tədbirlər təşkil edib, sənədli video-film, video-çarxlar çəkib, kitablar çap edib, elektron nəşrlər hazırlayaraq yayımlayıb, İnternetdə vizual-virtual materiallar yayıb, e-aksiyalar keçirib, ictimai-mədəni neo-maarifçilik fəaliyyətlərini reallaşdırıb.

Yeni nəsil üçün Heydər Əliyev irsinə aid innovativ-ideoloji modeli gələcəkdə respublikada yaşayan gənclər, eləcə də 60 milyonluq soydaşlarımıza yönəli

innovativ-kreativ, ideoloji düşüncə – təcrübə fəaliyyətlərinin reallaşdırılması planlaşdırılır.

Qlobal İnformasiya Resursu – İnternet, KİV, TV, fərqli sosial şəbəkələr və İKT alətləri, eyni zamanda, xaricdən yönləndirilən ziyanlı ideoloji-mənəvi həmlələrə qarşı dövlət müstəqilliyimizin, suverenliyimizin və Konstitusiyamızın müəllifi – Ümummilli Lider Heydər Əliyevin ölməz siyasi-dövlətçilik irsi, tarixi dəyər kəsb edən Azərbaycançılıq, vətənsevərlik ideyalarını, məhsuldar həyat və tarixi fəaliyyəti bir humanitar-kreativ, ruhi-mənəvi fikir-təsir tendensiyasına çevirməklə, yeni nəslin vətənpərvər ruhda böyüməsinə təkan verilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, milli-mədəni düşüncəmizdə Heydər Əliyev irsinə yeni formatlarda qayıdışı dəstək vermək, bu istiqamətdə silsilə tədbirərin həyata keçirilməsinə nail olmaqla, gənc nəsil üçün milli fikir, inanc və dəyər kəsb edən formatlar yaratmaq nəzərdə tutulub.

Gənc nəslin ideoloji-mənəvi kumiri hansısa xarici siyasi lider, filosof, yazıçı deyil, məhz həyatını Azərbaycanın müstəqilliyinə, inkişafına, gələcəyinə sərf etmiş Ulu Öndər Heydər Əliyev kimi dahi

olmalıdır. Layihənin əsas məqsədi bu istiqamətdə modelin hazırlanması, təşəbbüsün yayılmasını təmin etmək üçün ideya formatlarının yaradılmasına təkan verməkdir.

Prezident İlham Əliyevin məlum sərəncamından irəli gələrək milli-mədəni düşüncəmizdə Heydər Əliyev irsinə yeni formatlarda qayıdışı dəstək vermək, bu istiqamətdə silsilə tədbirərin həyata keçirilməsinə nail olmaqla, gənc nəsilin milli fikir, inanc və dəyər kəsb edən formatlar yaratmaqdır.

Milli-mədəni, siyasi-ideoloji düşüncəmizdə Heydər Əliyev siyasi irsinə yeni formada qayıdışı dəstəkləməklə, o istiqamətdə silsilə tədbirlərin həyata keçirilməsi, gənc nəsil üçün innovativ düşüncə, inac, öyrətmə formatlarının, fikir texnologiyalarının fərqli modellərini ortaya qoymaq, yeni kitab, e-nəşrlər, videofilm hazırlamaq, real/virtual formatda “Heydər Əliyev İrsi” – gənclərin innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual beyin məhsullarının yaradılması da nəzərdə tutulur.

Milli-mədəni, siyasi-ideoloji düşüncəmizdə Heydər Əliyev siyasi irsinə yeni formada qayıdışı dəstəkləməklə, o istiqamətdə silsilə tədbirlərin həyata

keçirilməsi, gənc nəsil üçün milli düşüncə, inam, öyrətmə formatları, fikir texnologiyalarının fərqli modellərini ortaya qoymaq, yeni kitab, e-nəşrlər, videofilm hazırlamaqla, real/virtual formatda “Heydər Əliyev İrsi” – gənclərin innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual beyin mərkəzi, resursu yaradılması.

Ulu Öndərin ölməz irsinin tarixi proseslərin məntiqi nəticəsi kimi qabardılacaq, milli-mədəni dəyər qazanmış ictimai-mədəni, sosial-siyasi, humanitar-estetik sərvət olaraq İnternet, yeni media və sosial şəbəkələrdə, elektron və virtual KİV-də, xüsusən də yeni nəsilin gənc nümayəndələri arasında tanıdılacaq. Lənkəranda yerləşən 2 orta məktəbdə “Heydər Əliyev İrsi” – gənclər üçün innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual formatlı beyin Mərkəzi, resurs yaradılacaq. Hər iki məktəb üçün müxtəlif mövzulu yeni kitablardan ibarət 100 nüsxəlik mini-kitabxana ilə təmin ediləcək.

Ulu Öndərin dövlətçilik irsinə həsr olunmuş, “Heydər Əliyev dövlətçilik irsi” adlı toplu və onun elektron versiyası nəşr ediləcək, təqdimatı keçiriləcək, yayımlanacaq, kitabxanalara, məktəblərə paylanılacaq.

Sosial şəbəkələrdə layihənin və modelin ayrıca səhifə hazırlanacaq, ardıcıl zənginləşdiriləcək.

Elektron kitabxanada ayrıca alt-bölüm hazırlanacaq, orada hazırlanacaq e-nəşrlər yayımlanacaq. "Heydər Əliyev dövlətçilik İrsi" mövzusuna həsr olunmuş 6 yeni e-nəşr hazırlanaraq gənc nəslin istifadəsinə veriləcək. İnternetdə və sosial şəbəkələrdə bu rəqəmsal nəşrlərin virtual sərgisi təşkil olunacaq.

İnternet resurslarında – saytlarda, sosial şəbəkələrdə, videoplatformalarda, e-kitabxanada mütəmadi olaraq materiallar yerləşdiriləcək, yayımlanacaq, e-aksiya keçiriləcək. Layihənin əsas hədəf qrupları yeni nəsil nümayəndələri, gənclər, müxtəlif yaşda, cinsdə, fərqli intellektual səviyyədə olan ictimai-sosial aktivistlar, yaradıcı kreativlər olacaq.

Gənc nəsil aktivistlər müxtəlif formatlı fəaliyyət növlərinə cəlb oluncaq, layihənin sonunda innovativ hərəkatın vahid üzvləri kimi bir platformada birləşəcəklər. YYSİB-nin Azərbaycan Respublikasının Gənclər Fondu vasitəsilə həyata keçirdiyi bu yeni kreativ layihəsi də, əvvəllər rallaşdırılanlar kimi, estetik-kulturoloji vasitələrlə ideoloji-mənəvi neo-

maarifləndirməni genişləndirəcək, Ulu Öndərin ölməz irsinin gənc nəsillərə çatdırılmasına xidmət edəcək.

**Hidayət - Ayxan Əbilli**

YYSİB-nin sədr müavini, İctimaiyyətlə Əlaqələr,

Analitik-İnformasiya Bölümü rəhbəri


GƏNCLƏR FONDU
YENİ YAZARLAR VƏ
MİLLİ KONSTİTUSİYA VƏ SUVEREN
AZƏRBAYCAN: HEYDƏR ƏLİYEVİN
YENİ NƏSİL ÜÇÜN ƏBƏDİ MİRASI